# QAZAXISTAN RESPUBLİKASININ “KORRUPSİYA İLÄ MÜBARİZÄ HAQQINDA” QANUNU

## I FÄSİLÜMUMİ MÜDDÄALAR

### MADDÄ 1. Qanunun mäqsädläri

1. Bu Qanun vätändaşların hüquq vä azadlıqlarının müdafiäsinä, korrupsiya täzahürlärindän töränän tähdidlärdän Qazaxıstan Respublikasının milli tählükäsizliyinin tämin edilmäsinä, korrupsiya ilä bağlı qanun pozuntularının qarşısının alınması, aşkarlanması, haqqında tädbir görülmäsi vä üstünün açılması, onların nätijälärinin aradan qaldırılması vä günahkarların mäsuliyyätä jälb edilmäsi yolu ilä dövlät orqanlarının, väzifäli vä dövlät funksiyalarını yerinä yetirän digär şäxslärin, eläcä dä onlara bärabär tutulan şäxslärin sämäräli fäaliyyätinin tämin edilmäsinä yönäldilib, korrupsiya ilä mübarizänin äsas prinsiplärini müäyyän edir, korrupsiya ilä bağlı qanun pozuntularının növlärini, eläcä dä mäsuliyyätin başlanması şärtlärini täsbit edir.
2. Bu Qanun häm dä dövlät idaräçiliyindä demokratik äsasların, aşkarlığın vä näzarätin genişlänmäsinä, dövlätä vä onun qurumlarına ähalinin inamının möhkämländirilmäsinä, säriştäli mütäxässislärin dövlät qulluğuna girmäyä häväsländirilmäsinä, dövlät funksiyalarını yerinä yetirän şäxslärin älä alınmazlığına şärait yaradılmasına yönäldilib.

### MADDÄ 2. Äsas anlayışlar

1. Bu Qanunda korrupsiya dedikdä dövlät funksiyalarını yerinä yetirän şäxslärin, eläjä dä onlara bärabär tutulan şäxslärin öz väzifä sälahiyyätlärindän vä onlarla bağlı imkanlardan istifadä etmäklä şäxsän, yaxud vasitäçilärlä maddi nemät vä imtiyazları qanunda näzärdä tutulmamış şäkildä qäbul etmäläri, habelä hämin şäxslärin göstärilän nemät vä imtiyazları fiziki vä hüquqi şäxslärin qanuna zidd şäkildä vermäsi yolu ilä älä alınması anlaşılır.
2. Korrupsiya ilä bağlı qanun pozuntuları (korrupsiya qanun pozuntuları) bu Qanunda, eläjä dä digär qanunlarda näzärdä tutulmuş, korrupsiya ilä çulğaşan, yaxud korrupsiya üçün şärait yaradan vä qanunverijiliklä müäyyän edilmiş intizam, inzibati vä cinayät mäsuliyyätinä cälb olunan ämällärdir.
3. Dövlät funksiyaları Qazaxıstan Respublikasının Konstitusiyası vä qanunları ilä dövlätin, onun orqanlarının vä dövlät väzifäsi tutan şäxslärin sälahiyyätlärinä aid edilän idaräçilik predmetläridir.
4. Väzifäli şäxslär daimi, müväqqäti, yaxud xüsusi sälahiyyätlä hökumät nümayändäsinin funksiyalarını häyata keçirän, yaxud dövlät orqanlarında, yerli idaräetmä orqanlarında, eläjä dä Qazaxıstan Respublikası Silahlı Qüvvälärindä, Qazaxıstan Respublikasının digär qoşunlarında vä härbi birläşmälärindä täşkilati-säränjamçı, yaxud inzibati-täsärrüfat funksiyalarını yerinä yetirän şäxslärdir.
5. Mäsul dövlät väzifäsi tutan şäxslär bilavasitä dövlät funksiyalarını vä dövlät orqanlarının sälahiyyätlärini ijra etmäk üçün Qazaxıstan Respublikasının Konstitusiyasında, Qazaxıstan Respublikasının konstitusiya vä digär qanunlarında müäyyän edilmiş väzifäläri tutan şäxslärdir, eläcä dä dövlät xidmäti haqqında Qazaxıstan Respublikasının qanunveriji-

liyindä müäyyän edilmiş dövlät qulluqçularının ali, birinji, yaxud ikinji väzifä kateqoriyalarına aid olan väzifäläri tutan şäxslärdir.

MADDÄ 3. Korrupsiya ilä bağlı qanun pozuntularının subyektläri

1. Korrupsiya ilä bağlı qanun pozuntularına görä bütün väzifäli şäxslär, Parlamentin, mäslihätlärin deputatları, hakimlär, eläjä dä bu maddädä göstärilmiş dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilmiş başqa şäxslär vä onlara bärabär tutulan şäxslär bu Qanun äsasında mäsuliyyät daşıyır.
2. Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilmiş başqa şäxslärä aşağıdakılar aiddir:
1) Qazaxıstan Respublikasının dövlät xidmäti haqqındakı qanunverijiliyä uyğun gälän bütün dövlät qulluqçuları;
2) hüquq-mühafizä orqanlarının vä xüsusi xidmätlärin väzifäli şäxsläri.
3. Bu Qanunun tätbiqi zamanı dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilmiş şäxslärä bärabär tutulanlar bunlardır:
1) yerli idaräetmä orqanlarına seçilmiş şäxslär;
2) Qazaxıstan Respublikası Prezidentliyinä, Qazaxıstan Respublikası Parlamentinä vä mäslihätlärinä deputatlığa, eläjä dä seçkili yerli idaräetmä orqanlarına üzvlüyä namizäd kimi qanunla müäyyän edilmiş qaydada qeydiyyatdan keçmiş vätändaşlar;
3) yerli idaräetmä orqanlarında daimi, yaxud müväqqäti işläyän, ämäk haqları Qazaxıstan Respublikası dövlät büdcäsinin väsaitlärindän, dövlät orqanlarının, yaxud yerli idaräetmä orqanlarının yaratdığı büdcädänkänar fondlardan ödänän qulluqçular;
4) dövlät täşkilatlarının, yaxud nizamnamä kapitallarında dövlät mülkiyyätinin ümumi payı 35%-dän az olmayan täşkilatların väzifäli şäxsläri.
4. Korrupsiya qanun pozuntuları subyektläri sırasına häm dä väzifäli şäxslärä vä dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilmiş digär şäxslärä, yaxud onlara bärabär tutulan şäxslärä maddi nemätläri vä imtiyazları qeyri-qanuni täqdim edän fiziki vä hüquqi şäxslär aiddir.

MADDÄ 4. Qanunun tätbiq dairäsi

1. Bu Qanun Qazaxıstan Respublikasının bütün ärazisindä bütün fiziki vä hüquqi şäxslärä şamil edilmäklä qüvvädädir. Bu Qanun Qazaxıstan Respublikasının hüdudlarından känarda Qazaxıstan Respublikasının vätändaşlarına vä beynälxalq sazişlä digär hal näzärdä tutulmayıbsa, Qazaxıstan Respublikasında qeydiyyatdan keçmiş hüquqi şäxslärä şamil edilmäklä qüvvädädir.
2. Ayrı-ayrı dövlät funksiyalarının yerinä yetirilmäsi qaydası haqqında, mäslihätlärin deputatlarının, hakimlärin statusu haqqında, dövlät qulluqçularının ayrı-ayrı kateqoriyalarının qulluqdan keçmäsi haqqında, korrupsiya ilä bağlı başqa mümkün qanun pozuntuları subyektläri haqqında qanunverijiliklä korrupsiyanın qarşısının alınmasına yönäldilmiş mähdudiyyätlär vä yasaqlar näzärdä tutan digär hüquqi normalar müäyyänläşdirilä bilär.
3. Hakimlär, Qazaxıstan Respublikası Parlamentinin deputatları törädilän korrupsiya qanunpozuntularına görä Qazaxıstan Respublikasının Konstitusiyasında vä qanunlarında näzärdä tutulan äsaslar üzrä qaydada mäsuliyyät daşıyırlar.

4. Qazaxıstan Respublikasının Jinayät Mäjälläsindä korrupsiya jinayätlärinä görä jinayät mäsuliyyäti vä jäza näzärdä tutulur.

MADDÄ 5. Korrupsiya ilä mübarizänin äsas prinsipläri

Korrupsiya ilä mübarizä:
1) hamının qanun vä mähkämä qarşısında bärabär olması;
2) dövlät orqanları fäaliyyätinin däqiq hüquqi reqlamentläşdirilmäsinin, bu fäaliyyätin qanuniliyinin vä aşkarlığının, onun üzärindä dövlät näzarätinin vä ijtimai näzarätin tämin edilmäsi;
3) dövlät aparatı qurumunun, fiziki vä hüquqi şäxslärin hüquq vä qanuni mänafelärinä aid kadr işinin vä mäsälälärin hälli prosedurlarının täkmilläşdirilmäsi;
4) fiziki vä hüquqi şäxslärin, eläjä dä dövlätin sosial-iqtisadi, siyasi-hüquqi, täşkilati-idaräetmä sistemlärinin hüquqlarının vä qanuni mänafelärinin müdafiäsinin üstün tutulması;
5) väzifäli şäxslärin vä dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilmiş digär şäxslärin, eläjä dä Qazaxıstan Respublikası Konstitusiyasının 39-ju maddäsinin 1-ji bändinä uyğun olaraq onlara bärabär tutulan şäxslärin hüquq vä azadlıqlarının mähdudlaşdırılmasının mümkünlüyünün etiraf edilmäsi;
6) fiziki vä hüquqi şäxslärin pozulmuş hüquq vä qanuni mänafelärinin bärpası, korrupsiya qanun pozuntularının zärärli nätijälärinin läğv edilmäsi vä qarşısının alınması;
7) korrupsiya qanun pozuntuları ilä mübarizäyä yardım göstärän vätändaşların şäxsi tählükäsizliyinin tämin edilmäsi;
8) dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilmiş  şäxslärin vä onlara bärabär tutulan şäxslärin hüquq vä qanuni mänafelärinin dövlät täräfindän müdafiäsi, bu şäxslärä onların vä ailälärinin layiqli häyat säviyyäsini tämin edäjäk ämäk haqqı (pul väsaiti) vä imtiyazların müäyyänläşdirilmäsi;
9) sahibkarlıq fäaliyyätinin tänzimlänmäsi vä ona näzarät üzrä dövlät sälahiyyätlärinin belä fäaliyyäti häyata keçirän fiziki vä hüquqi şäxslärä ötürülmäsinä yol verilmämäsi;
10) korrupsiya ilä bağlı jinayätlärin aşkarlanması, üstünün açılması, aradan qaldırılması vä qarşısının alınması mäqsädilä operativ-axtarış vä digär fäaliyyätin häyata keçirilmäsi, eläjä dä qeyri-qanuni qazanılmış pul väsaitlärinin vä digär ämlakın leqallaşdırılmasının qarşısının alınması mäqsädilä maliyyä näzaräti üzrä xüsusi tädbirlärin qanunla müäyyänläşdirilmiş qaydada tätbiq edilmäsi;
11) bu Qanunun 3-jü maddäsinin 1-ji, 2-ji bändlärindä göstärilmiş şäxslärin sahibkarlıq fäaliyyätinä, o sıradan, belä väzifänin tutulması qanunverijiliklä müäyyänläşdirilmiş väzifä öhdäliklärindä qabaqjadan  näzärdä tutulduğu hallar istisna olmaqla, täsärrüfat subyektlärinin idaräetmä orqanlarında ämäk haqqı ödänilän väzifäläri tutmasına yasaq qoyulması äsasında häyata keçirilir.

MADDÄ 6. Korrupsiya ilä mübarizäni häyata keçirän orqanlar

1. Bütün dövlät orqanları vä väzifäli şäxslär öz sälahiyyätläri çärçiväsindä korrupsiya ilä mütläq mübarizä aparmağa borcludurlar. Dövlät orqanları vä täşkilatların, yerli özünüidarä orqanlarının rähbärläri öz sälahiyyätläri çärçiväsindä kadr, näzarät, hüquq üzrä vä

digär xidmätläri jälb edäräk bu Qanunun täläblärinin yerinä yetirilmäsini vä onda nazär-dä tutulmuş intizam tädbirlärinin tätbiqini tämin edirlär.
2. Prokurorluq, milli tählükäsizlik, daxili işlär orqanları, vergi, gömrük vä särhäd xidmät-läri, vergi polisi vä härbi polis korrupsiya qanunpozuntularının aşkarlanması, aradan qal-dırılması vä qarşısının alınmasını vä onların baş vermäsindä günahkar olan şäxslärin mä-suliyyätä jälb edilmäsini öz sälahiyyätläri çärçiväsindä häyata keçirirlär.
3. Bu maddänin 2-ji bändindä göstärilän orqanlar mütläq öz sälahiyyätlärindän doğan tädbirläri görmälidirlär vä mäsul dövlät väzifäsi tutan şäxslärin törätdikläri korrupsiya ji-nayätlärinin bütün aşkarlanmış halları barädä milli tählükäsizlik orqanlarını, yaxud täh-kim edilmiş  digär orqanı täjili mälumatlandırmalıdır.
4. Qazaxıstan Respublikasının Prezidentinin korrupsiya ilä mübarizä üzrä dövlät orqanı yaratmaq, onun status vä sälahiyyätlärini täyin etmäk hüququ vardır.
MADDÄ 7. Korrupsiya ilä mübarizäyä yardım göstärän şäxslärin toxunulmazlığına zäma-nätlär
1. Korrupsiya qanunpozuntusu faktı barädä xäbär vermiş, yaxud başqa şäkildä korrupsi-ya ilä mübarizäyä yardım etmiş şäxsi dövlät qoruyur.
2. Korrupsiya ilä mübarizäyä yardım edän şäxs haqqındakı mälumat dövlät sirridir vä yalnız bu Qanunun 6-jı maddäsinin 2-ji vä 4-jü bändlärindä göstärilän orqanların, yaxud qanunla müäyyän olunmuş qaydada mähkämänin sorğusu ilä täqdim olunur. Bu mälu-matın açıqlanması qanunla müäyyän olunmuş mäsuliyyät doğurur.
3. Korrupsiya ilä mübarizä edän orqanlar zäruri halda korrupsiya ilä mübarizäyä yardım edänlärin şäxsi tählükäsizliyini tämin edir.
4. Bu maddänin qaydaları biläräkdän yalan mälumat verdiyinä görä bu Qanuna uyğun olaraq mäsuliyyätä jälb edilmäli şäxslärä şamil edilmir.
II FÄSİL KORRUPSİYANIN QARŞISININ ALINMASI, KORRUPSİYA QANUNPOZUNTULARI VÄ ONLARA GÖRÄ MÄSULİYYÄT

MADDÄ 8. Dövlät funksiyalarını yerinä yetirmäk iddiasında olan şäxslärä xüsusi täläblär

1. Dövlät funksiyalarını yerinä yetirmäk, yaxud belä funksiyaların yerinä yetirilmäsinä vä-kil edilmiş orqan vä täşkilatlarda dövlät väzifälärini tutmaq iddiasında olan şäxslär onla-rın statusundan vä ona äsaslanan nüfuzundan şäxsi, qrup vä başqa qeyri-xidmäti ma-raqlar üçün istifadä edilmäsinä gätirib çıxaran ämällärä yol vermämäk mäqsädilä bu Qa-nunda vä başqa qanunlarda müäyyänläşdirilmiş mähdudiyyätläri üzärlärinä götürürlär, bu zaman hämin şäxslärä belä ämällärin hüquqi nätijäläri barädä xäbärdarlıq edilir.
2. Göstärilmiş şäxslärin mähdudiyyätlärlä razılaşmasını uyğun täşkilatların kadr xidmät-läri yazılı şäkildä qeydä alır. Mähdudiyyätlärin qäbul edilmämäsi şäxsin dövlät funksiya-larının, ya da onlara bärabär tutulan funksiyaların yerinä yetirilmäsinä jälb edilmäsindän imtina edilmäsinä, yaxud işdän çıxarılmasına, ya da ki, göstärilmiş funksiyaların yerinä yetirilmäsindän qanunda näzärdä tutulmuş qaydada başqa jür azad edilmäsinä säbäb olur.
MADDÄ 9. Maliyyä näzaräti tädbirläri

1. Dövlät väzifäsinä, yaxud bärabär tutulan funksiyaların yerinä yetirilmäsi ilä bağlı väzifäyä namizäd olan şäxslär yaşayış yerlärindäki vergi orqanına aşağıdakıları täqdim edirlär:
w gälirlär haqqında bäyannamä;
w qiymätländirmä däyäri vä yerläşdiyi yer göstärilmäklä vergiqoyma obyekti olan, o sıradan Qazaxıstan Respublikasının hüdudlarından känarda yerläşän ämlak haqqında bäyannamä;
w bank müässisäsi göstärilmäklä bank müässisälärindäki, o sıradan Qazaxıstan Respublikasının hüdudlarından känarda yerläşän ämanätlär vä qiymätli kağızlar haqqında, eläjä dä hämin şäxslärin özlärinin şäxsän, yaxud başqa şäxslärlä ortaqlı säränjam vermäk hüquqları olan maliyyä väsaitläri haqqında mälumat;
w özünün sähmdar, yaxud täsisçi (iştirakçı) qismindä birbaşa, ya da vasitäçilärlä iştirak etdiyi hüquqi şäxslärin nizamnamä kapitalındakı payı vä göstärilän täşkilatın bütün bank vä digär rekvizitläri haqqında mälumat;
w ägär şäxs, yaxud onun äri (arvadı) trastların benefitsiarıdırsa uyğun bank hesablarının nömräläri göstärilmäklä hämin trastlar vä onların qeydiyyatda olduğu dövlätlär haqqında mälumat;
w şäxsä, yaxud ärinä (arvadına) mäxsus vä häcmi hesablanmış aylıq göstärijinin häcminin min mislindän çox olan maddi vä maliyyä väsaitlärinin saxlanması, yaxud müväqqäti qorunması üzrä şäxslä müqavilä münasibätläri, sazişläri vä öhdälikläri (o cümlädän dä şifahi) olan digär täşkilatların adları vä rekvizitläri haqqında mälumat.
2. Dövlät väzifäsi tutan şäxslär här il öz sälahiyyätlärini yerinä yetirdikläri müddätdä, eläcä dä mänfi motivlär ilä dövlät xidmätindän azad edilmiş şäxslär işdän çıxdıqdan sonra üç il yaşayış yerindäki vergi orqanına vergi qanunvericiliyindä müäyyänläşdirilmiş qaydada bäyannamä täqdim edirlär.
3. Bu maddänin 1-ji bändinin birinji hissäsindä vä 2-ji bändindä göstärilän şäxsin äri (arvadı) gälirläri vä Qazaxıstan Respublikasının ärazisindä, eläjä dä onun hüdudlarından känarda yerläşän vergiqoyma obyekti olan ämlakı haqqında bäyannamäni yaşayış yerindäki vergi orqanına täqdim edir.
4. Bu maddänin 1-ji vä 2-ji bändlärindä göstärilän şäxslär vergi orqanından bu maddänin 1-3-jü bändlärindä sadalanan bäyannamä vä mälumatları alması barädäki arayışı uyğun olaraq ya väzifä tutmaq iddiasında olduqları orqana, ya da iş yerinä täqdim edirlär.
5. Bu maddänin 1-ji vä 2-ji bändlärindä göstärilän şäxslär (mänfi motivlärlä dövlät xidmätindän azad olunmuş şäxslär istisna olmaqla) täräfindän bu maddädä sadalanan bäyannamä vä mälumatların täqdim olunmaması, yaxud yarımçıq, ya da yanlış täqdim olunması, bu ämäldä jinayät jäzalı ämälin älamätläri yoxdursa şäxsä uyğun sälahiyyälärin verilmäsindän imtina etmäk üçün äsasdır, yaxud onun qanunla näzärdä tutulmuş qaydada işdän çıxarılmasına, ya da dövlät, yaxud onlara bärabär tutulan funksiyaların yerinä yetirilmäsindän başqa cür azad edilmäsinä säbäb olur.
6. Dövlät funksiyalarının, yaxud onlara bärabär tutulan funksiyaların yerinä yetirilmäsindän azad edildikdän sonrakı üç il ärzindä şäxs täräfindän bu maddänin 5-ji bändindä göstärilmiş ämällärin birinji däfä törädilmäsi bu qanunun 6-jı maddäsinin 2-ji bändindä göstärilmiş orqanların täqdimatı (protokolları) ilä mähkämä täräfindän inzibati qaydada

ällidän yüzä qädär aylıq haqq-hesab göstärijisi häjmindä cärimäyä säbäb olur. Göstärilmiş müddätdä belä ämällärin täkrar törädilmäsi elä hämin qayda üzrä yüzdän iki yüzä qädär aylıq haqq-hesab göstärijisi häcmindä cärimäyä säbäb olur.
7. Qanunverijiliklä müäyyänläşdirilmiş qayda üzrä mäsul dövlät väzifäläri tutan väzifäli şäxslärin gälirlärinin häjmi vä mänbäläri haqqında mälumatlar, eläjä dä seçkili dövlät väzifälärinä namizädlärin (iräli sürüldükläri zaman) gälirläri haqqında mälumatlar därj oluna bilär.
8. Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilmiş şäxslärin vä onlara bärabär tutulan şäxslärin öz adından başqa ad altında (älaltı şäxsin adı, adsız, täxällüslä vä b.) mülki-hüquqi äqdlär bağlamaq qadağan olunur. Bu sövdäläşmälär qanunla müäyyänläşdirilmiş qaydada etibarsız sayılır.
9. Dövlät ämlakının idarä edilmäsi üzrä funksiyalarda iştirak edän fiziki vä hüquqi şäxslär Qazaxıstan Respublikası Hökumätinin müäyyänläşdirdiyi qayda vä müddätdä mülki säciyyäli bütün sövdäläşmälärlä vä dövlät mülkiyyäti ilä bağlı maliyyä fäaliyyäti haqqında hesabatı  dövlät mülkiyyätinä münasibätdä sahibkar sälahiyyätlärini häyata keçirän dövlät orqanına täqdim edirlär.
10. Bu maddädä näzärdä tutulan vä vergi orqanlarına daxil olan mälumatlar xidmäti sirrdir. Onların açıqlanması, bu ämäldä cinayät cäzalı ämälin älamätläri yoxdursa täqsirli şäxsin işdän çıxarılmasına säbäb olur. Hämin mälumatlar yalnız bu Qanunun 6-jı maddäsinin 2-ji vä 4-jü bändlärindä göstärilmiş orqanların, eläcä dä qanunla müäyyänläşdirilmiş qaydada mähkämänin sorğusu ilä täqdim olunur.
11. Bu maddädä näzärdä tutulmuş maliyyä näzaräti tädbirläri Qazaxıstan Respublikasında yaşayış binalarının vä yaşayış binalarının tikintisi üçün tikinti materiallarının mülkiyyätä alınması üzrä hüquqi münasibätlärä şamil edilmir. Yaşayış binalarının vä onların tikintisi üçün tikinti materiallarının alınması üzrä maliyyä näzaräti Qazaxıstan Respublikasının qanunvericiliyinä uyğun olaraq häyata keçirilir.
MADDÄ 10. Dövlät funksiyalarının yerinä yetirilmäsi ilä bir araya sığmayan fäaliyyät
1. Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilmiş väzifäli vä başqa şäxslärin vä onlara bärabär tutulan şäxslärin (bu Qanunun 3-jü maddäsinin 3-jü bändinin 2) vä 4) yarımbändlärindä göstärilän şäxsläri çıxmaqla) pedaqoji, elmi vä digär yaradıjılıq fäaliyyätindän savayı haqqı ödänilän başqa fäaliyyätlä mäşğul olması qadağandır.
2. Bu maddänin 1-ji bändindä göstärilän şäxslärin sahibkarlıq fäaliyyäti ilä mäşğul olması, täsärrüfat subyektinin idarä edilmäsindä müstäqil iştirak etmäsi (ägär täsärrüfat subyektinin idarä edilmäsi, yaxud idarä edilmäsindä iştirak qanunverijiliyä uyğun olaraq onun väzifä öhdäliklärinä daxil deyildirsä), öz xidmäti sälahiyyätlärindän maddi nemätlär äldä etmäk mäqsädilä qeyri-qanuni istifadä edäräk täşkilatların, yaxud fiziki şäxslärin maddi maraqlarını tämin etmäsi  qadağandır.
3. Bu maddänin 1-ji bändindä göstärilän şäxslär väzifäyä başladıqdan sonra bir ay ärzindä onlara qanuni mäxsus olan pullar, eläjä dä ämlak ijaräsinä verilmiş digär ämlak çıxılmaqla Qazaxıstan Respublikasının qanunverijiliyindä müäyyänläşdirilmiş qaydada istifadäsindän gälir gälän ämlaklarını bu funksiyaların ijrası müddätindä etibarlı idaräçiliyä vermälidirlär.

4. Bu maddänin 1-ji bändindä göstärilän vä bu funksiyaların yerinä yetirilmäsi ilä bir araya sığmayan fäaliyyätlä mäşğul olan şäxslär işdän çıxarılmalı, yaxud qanunla müäyyänläşdirilmiş  qaydada uyğun funksiyaların yerinä yetirilmäsindän başqa cür azad olunmalıdırlar. Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilmiş şäxs, yaxud ona bärabär tutulan şäxs bu funksiyaların yerinä yetirilmäsi ilä bir araya sığmayan fäaliyyätlä mäşğul olduğuna görä hämin funksiyaların yerinä yetirilmäsindän azad edildikdä bu maddädä göstärilän fäaliyyätlä mäşğuliyyäti dayandırmayanadäk belä funksiyaların yerinä yetirilmäsinä o yenidän väkil edilä bilmäz.

MADDÄ 11. Yaxın qohumların vä ya doğmaların birgä işlämäsinin yolverilmäzliyi

1. Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilmiş väzifäli vä digär şäxslär vä onlara bärabär tutulan şäxslär (bu Qanunun 3-jü maddäsinin 3-jü bändinin 4) yarımbändindä göstärilän şäxslär çıxılmaqla) qanunvericilikdä näzärdä tutulmuş hallar çıxılmaqla öz yaxın qohumlarının (valideynlär, häyat yoldaşları, qardaşlar, bacılar, uşaqlar), yaxud doğmalarının (häyat yoldaşlarının qardaşları, bacıları, valideynläri vä uşaqları) tutduqları väzifäyä birbaşa tabe olan väzifäläri tuta bilmäzlär.
2. Bu maddänin 1-ji bändinin täläblärini pozan şäxslär göstärilän pozuntunun aşkarlanmasından keçän üç ayda onu könüllü şäkildä aradan qaldırmasalar belä tabeliyi istisna edän väzifäyä keçirilmälidir, belä keçirmä mümkün olmadıqda bu ämäkdaşlardan biri väzifädän çıxarılmalı, yaxud göstärilän funksiyaların yerinä yetirilmäsindän başqa cür azad olunmalıdır.
3. Bu maddänin 1-ji bändindä göstärilmiş äsaslarla işdän çıxarılmış şäxslärin başqa orqanlara, täşkilatlara dövlät funksiyalarının, yaxud onlara bärabär tutulan funksiyaların yerinä yetirilmäsi ilä bağlı olan dövlät qulluğuna vä başqa qulluğa girmäk hüququ var.

MADDÄ 12. Korrupsiyaya şärait yaradan qanun pozuntuları vä onlara görä mäsuliyyät

1. Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilmiş väzifäli şäxslärin, yaxud onlara bärabär tutulan şäxslärin aşağıdakı ämälläri korrupsiyaya şärait yaradan qanun pozuntularıdır:
1) başqa dövlät orqanlarının, täşkilatlarının fäaliyyätinä qanunsuz müdaxilä edilmäsi;
2) göstärilmiş şäxslärin, yaxud onların yaxın qohumlarının vä doğmalarının maddi maraqlarını ödämäklä bağlı mäsälälärin hällindä öz väzifä sälahiyyätlärindän istifadä edilmäsi;
3) dövlät qulluğuna vä ona bärabär tutulan qulluğa girmä vä väzifädä irälilämä zamanı qanunla näzärdä tutulmamış imtiyazların (himayäçilik, qohumbazlıq) verilmäsi;
4) qärarların hazırlanması vä qäbulunda hüquqi vä fiziki şäxslärä qeyri-qanuni üstünlük verilmäsi;

5) sahibkarlıq vä gälir gätirän başqa fäaliyyätin häyata keçirilmäsindä kimliyindän asılı olmayaraq istänilän şäxsä qanunverijilikdä näzärdä tutulmamış här hansı yardımın edilmäsi;

6) dövlät funksiyalarının yerinä yetirilmäsi zamanı alınmış, räsmän yayımlanmasına ijazä verilmäyän mälumatın şäxsi, yaxud qrup maraqları üçün istifadä edilmäsi;

7) täqdim olunması qanunverijilikdä näzärdä tutulmuş mälumatın fiziki vä hüquqi şäxslärä verilmäsindän imtina edilmäsi, äsassız olaraq onun längidilmäsi, yanlış, yaxud yarımçıq mälumatın verilmäsi;

8) täqdim olunması qanunverijilikdä näzärdä tutulmamış mälumatın verilmäsinin fiziki vä hüquqi şäxslärdän täläb edilmäsi;

9) dövlätin maddi vä maliyyä ehtiyatlarının ayrı-ayrı namizädlärin, yaxud ijtimai birliklärin seçki fondlarına verilmäsi;

10) fiziki vä hüquqi şäxslärin müraciätlärinä baxılması vä onların sälahiyyätlärinä daxil olan başqa mäsälälärin häll edilmäsi üzrä qanunla müäyyänläşdirilmiş qaydanın pozulması;

11) ümummäqbul näzakät vä qonaqpärvärlik normalarına uyğun, eläjä dä protokol vä başqa räsmi tädbirlärin keçirilmäsi zamanı rämzi diqqätjillik nişanäläri vä rämzi yadigar äşyaları çıxılmaqla, özündän yüksäk väzifäli räsmi şäxslärä hädiyyälärin bağışlanması vä qeyri-xidmäti qulluqların göstärilmäsi;

12) fiziki vä hüquqi şäxslärä özlärinin hüquqlarını vä qanuni maraqlarını gerçäkläşdirmäkdä açıq-aydın ängäl törädilmäsi;

13) sahibkarlıq fäaliyyätinin tänzimlänmäsi vä ona näzarät üzrä dövlät sälahiyyätlärinin hämin fäaliyyäti häyata keçirän fiziki vä hüquqi şäxslärä ötürülmäsi;
14) özündän yüksäk vä ya aşağı väzifälilärlä, yaxud qulluq vä iş üzrä onlardan başqa asılılığı olan şäxslärlä pul vä ya başqa maddi säjiyyäli qumar oyunlarında iştirak edilmäsi.
2. Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilän şäxslärin vä onlara bärabär tutulan şäxslärin bu maddänin 1-ji bändindä göstärilän qanun pozuntularından här hansı birini (onda jinayät jäzalı ämälin älamätläri yoxdursa) törätmäsi  väzifänin kiçildilmäsinä, väzifädän çıxarılmaya, yaxud dövlät funksiyasının yerinä yetirilmäsindän başqa cür azad edilmäyä, ya da qanunla müäyyänläşdirilmiş här hansı başqa intizam tänbehinä säbäb olur.
Birinji qanun pozuntusuna görä verilän intizam tänbehindän sonrakı bir ildä göstärilän qanun pozuntularından här hansı birinin täkrar törädilmäsi väzifädän çıxarılmaya, yaxud dövlät funksiyasının yerinä yetirilmäsindän qanunla müäyyänläşdirilmiş başqa jür azad edilmäyä säbäb olur.
3. Qazaxıstan Respublikası Parlamenti deputatının, yaxud bu Qanunun 3-jü maddäsinin 3-jü bändinin 2) yarımbändindä göstärilän şäxslärin bu maddänin 1-ji bändindä göstärilän qanun pozuntularından här hansı birini törätmäsi halında korrupsiya ilä mübarizä aparan orqanlar bu barädä uyğun seçki komissiyasına mälumat vermäli vä o da materialları aldığı andan beş gün ärzindä Parlamentin näzärinä çatdırmalıdır.
MADDÄ 13. Maddi nemät vä üstünlüklärin qeyri-qanuni äldä edilmäsi ilä bağlı  korrupsiya qanun pozuntuları
1. Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilän väzifäli şäxslärin, yaxud onlara bärabär tutulan şäxslärin aşağıdakı ämälläri maddi nemät vä üstünlüklärin qeyri-qanuni äldä edilmäsi ilä bağlı korrupsiya qanun pozuntularıdır:

1) ägär digär hal qanunverijilikdä näzärdä tutulmayıbsa, özünün dövlät funksiyalarının, yaxud onlara bärabär tutulan funksiyaların ijrasına görä şäxsin uyğun funksiyalar ijra etmädiyi täşkilatlardan, eläjä dä fiziki şäxslärdän pul, xidmät vä ya başqa şäkildä här hansı haqqın qäbul edilmäsi.
Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilän şäxsin, yaxud ona bärabär tutulan şäxsin özünün xäbäri olmadan onun hesabına daxil olmuş pul väsaitläri, eläjä dä özünün uyğun funksiyalarının ijrasını bu yarımbändin birinji abzasını pozmaqla aldığı väsaitlär aşkarlandıqdan iki häftädän gec olmayaraq, belä väsaitlärin daxilolma şäraiti barädä uyğun vergi orqanına izahat verilmäklä respublika büdjäsinä köçürülmälidir;
2) ümummäqbul näzakät vä qonaqpärvärlik normalarına uyğun, eläjä dä protokol vä başqa räsmi tädbirlärin keçirilmäsi zamanı rämzi diqqätcillik nişanäläri vä rämzi yadigar äşyaları çıxılmaqla, xidmäti asılılığı olan şäxslärdän özünün dövlät funksiyalarının vä ya onlara bärabär tutulan funksiyaların icrası ilä bağlı hädiyyä vä xidmätlärin qäbul edilmäsi. Göstärilmiş şäxsin özünün xäbäri olmadan daxil olmuş hädiyyälär, eläjä dä özünün uyğun funksiyalarının icrası ilä bağlı bu yarımbändin birinji abzasını pozmaqla qäbul etdiyi hädiyyälär yeddi gün ärzindä  xüsusi dövlät fonduna tämännasız tähvil edilmälidir, şäxsä elä o jür dä göstärilmiş xidmätlärin äväzini isä hämin şäxs respublika büdcäsinä pul väsaiti köçürmäklä ödämälidir. Hädiyyälär daxil olmuş şäxs özündän  yuxarı väzifäli şäxsin razılığı ilä hämin hädiyyäläri uyğun ärazidäki bazar
pärakändä satış  qiymätläri ilä göstärilän fonddan ala bilär. Xüsusi dövlät fondu hädiyyälärin satışından daxil olan pul väsaitlärini respublika büdjäsinä köçürür;
3) aşağıdakı säfärlär çıxılmaqla, häm xariji ölkälärin, häm dä Qazaxıstan Respublikasının fiziki vä hüquqi şäxslärinin hesabına dövlätdaxili vä xarici turist, müalicä-sağlamlıq vä başqa säfärlärä dävätlärin qäbul edilmäsi:

w ärin (arvadın), qohumların däväti ilä onların hesabına;

w başqa fiziki şäxslärin (dävät edilänlärin onlarla münasibäti xidmäti fäaliyyät mäsäläärinä toxunmursa) däväti ilä (yuxarı väzifäli şäxsin, yaxud orqanın razılığı ilä);

w Qazaxıstan Respublikasının beynälxalq sazişlärinä uyğun olan, yaxud Qazaxıstan Respublikasının orqanları vä xariji dövlätlärin dövlät orqanları arasındakı qarşılıqlı razılaşmaya äsasän uyğun dövlät orqanları vä (vä ya) beynälxalq täşkilatların väsaitläri hesabına häyata keçirilänlär;

w yuxarı väzifäli şäxsin, yaxud orqanın razılığı ilä ijtimai birliklärin (fondların) väsaiti hesabına xariji (beynälxalq) elmi, idman, yaradıjılıq, peşäkar, humanitar tädbirlärdä, o sıradan xariji täräfdaşların däväti ilä belä ijtimai birliklärin (fondların) nizamnamä fäaliyyäti çärçiväsindä häyata keçirilän säfärlärdä  iştirak etmäk üçün häyata keçirilänlär;

4) kreditlärin, ssudaların alınmasında, qiymätli kağızların, daşınmaz vä digär ämlakın äldä edilmäsindä qanunverijilikdä näzärdä tutulmayan üstünlüklärdän istifadä edilmäsi.

2. Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilän şäxsin, yaxud ona bärabär tutulan şäxsin ailä üzväri hämin şäxsin xidmät üzrä bağlı olduğu häm xariji ölkänin, häm dä Qazaxıstan Respublikasının fiziki vä hüquqi şäxslärindän hädiyyä vä xidmätläri vä onların hesabına turist, müalicä-sağlamlıq vä digär säfärlärä dävätläri qäbul edä bilmäzlär.

Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilän şäxs, yaxud ona bärabär tutulan şäxs onun ailä üzvlärinin qeyri-qanuni aldığı hädiyyäläri yeddi günä tämännasız olaraq xüsusi dövlät fonduna tähvil vermäli vä respublika büdjäsinä pul väsaiti köçürmäklä ailä üzvlärinin qeyri-qanuni istifadä etdikläri xidmätlärin haqqını ödämälidir.

3. Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilän şäxsin, yaxud ona bärabär tutulan şäxsin bu maddänin 1-ji vä 2-ji bändlärindä göstärilän korrupsiya qanun pozuntularından här hansı birini törätmäsi (onda cinayät jäzalı ämälin älamätläri yoxdursa) väzifänin kiçildilmäsmnä, väzifädän çıxarılmaya, yaxud dövlät funksiyasının yerinä yetirilmäsindän başqa jür azad edilmäyä, ya da qanunla müäyyänläşdirilmiş här hansı başqa intizam tänbehinä säbäb olur.
Birinji qanun pozuntusuna görä verilän intizam jäzasından sonrakı bir ildä täkrarän göstärilän qanun pozuntularının här hansı birinin törädilmäsi väzifädän çıxarmanı, yaxud dövlät funksiyasının yerinä yetirilmäsindän qanunla müäyyänläşdirilmiş digär azad edilmäni doğurur.
4. Qazaxıstan Respublikası Parlamenti deputatının, yaxud bu Qanunun 3-jü maddäsinin 3-jü bändinin 2) yarımbändindä göstärilän şäxslärin bu maddänin 1-ji vä 2-ji bändlärindä göstärilän qanun pozuntularından här hansı birini törätmäsi halında korrupsiya ilä mübarizä aparan orqanlar bu barädä uyğun seçki komissiyasına mälumat vermäli vä o da materialları aldığı andan beş gün ärzindä Parlamentin näzärinä çatdırmalıdır.

MADDÄ 14. Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilän şäxslärin, yaxud onlara bärabär tutulan şäxslärin qeyri-qanuni maddi mükafatlandırılmasına görä fiziki vä hüquqi şäxslärin mäsuliyyäti

1. Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilän şäxslärä, yaxud onlara bärabär tutulan şäxslärä qeyri-qanuni maddi haqq, hädiyyälär, güzäştlär vä ya xidmätlär täqdim etmiş fiziki şäxslär (onların häräkätindä jinayät jäzalı ämälin älamätläri yoxdursa) bu qanunun 6-jı maddäsinin 2-ji bändindä göstärilmiş orqanların vä qanunla bu işä väkil edilmiş başqa orqanların vä väzifäli şäxslärin täqdimatı (protokolu) ilä mähkämä täräfindän inzibati qaydada iyirmi beşdän älliyä qädär aylıq haqq-hesab göstärijisi häjmindä järimä olunurlar.

2. Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilän şäxslärä, yaxud onlara bärabär tutulan şäxslärä qeyri-qanuni maddi haqq, hädiyyälär, güzäştlär vä ya xidmätlär täqdim etmiş hüquqi şäxslär bu qanunun 6-jı maddäsinin 2-ji bändindä göstärilmiş orqanların vä qanunla bu işä väkil edilmiş başqa orqanların vä väzifäli şäxslärin täqdimatı (protokolu) ilä mähkämä täräfindän inzibati qaydada yüzdän beş yüzä qädär aylıq haqq-hesab göstärijisi hácmindä järimä olunurlar. Birinji qanun pozuntusuna görä verilän inzibati jäzadan sonrakı üç ildä hämin ämällärin täkrarän törädilmäsi mähkämänin qärarı ilä hüquqi şäxsin fäaliyyätinin qanunla müäyyänläşdirilmiş qaydada dayandırılmasına säbäb olur.

3. Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilän şäxsä, yaxud ona bärabär tutulan şäxsä qeyri-qanuni maddi haqq, hädiyyälär, başqa maddi nemätlär, xidmätlär vä ya üstünlüklär täqdim etmiş fiziki, hüquqi şäxslär aşağıdakı hallarda mäsuliyyätä jälb olun-

murlar: onlara münasibätdä dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilän şäxsin, yaxud ona bärabär tutulan şäxsin rüşväti täläb etmäsi halı baş veribsä, yaxud hämin fiziki, hüquqi şäxslär baş vermiş hadisä haqqında on gün ärzindä bu qanunun 6-jı maddäsinin 2-ji vä 4-jü bändlärindä göstärilmiş orqanlara könüllü olaraq mälumat verärlärsä.

MADDÄ 15. Dövlät orqanlarının vä yerli özünüidaräetmä orqanlarının qeyri-qanuni sahibkarlıq fäaliyyäti häyata keçirmäsi vä qeyri-qanuni gälirlär alması üstündä mäsuliyyät

1. Dövlät orqanları, yerli özünüidaräetmä orqanları qanunverijilikdä onlara hävalä edilmiş funksiyalardan känarda sahibkarlıq fäaliyyäti ilä mäşğul olduqda, yaxud müäyyänläşdirilmiş maliyyä mänbälärindän savayı maddi nemät vä üstünlüklär qäbul etdikdä bu orqanların rähbärläri bu qanunun 6-jı maddäsinin 2-ji bändindä göstärilän orqanların vä qanunla bu işä väkil edilmiş başqa orqanların vä väzifäli şäxslärin täqdimatı (protokolu) ilä mähkämä täräfindän inzibati qaydada ällidän yüzä qädär aylıq haqq-hesab göstärijisi häjmindä järimä olunurlar.

2. Bu maddänin 1-ji bändindä näzärdä tutulan qanun pozuntusunun täkrarän törädilmäsi göstärilän orqanların täqsirkar rähbärlärinin väzifädän çıxarılmasına, yaxud dövlät funksiyalarının vä ya onlara bärabär tutulan funksiyaların yerinä yetirilmäsindän başqa jür azad edilmäsinä säbäb olur.

MADDÄ 16. Korrupsiya ilä mübarizä tädbirlärinin görülmämäsinä görä dövlät orqanları rähbärlärinin mäsuliyyäti

1. Korrupsiya qanun pozuntusuna görä tabeliyindäki ämäkdaşlara münasibätdä öz sälahiyyätläri çärçiväsindä bu Qanunla näzärdä tutulmuş ölçüläri götürmäyän, yaxud bu Qanunun pozulması ilä ölçü götürän, yaxud müqässir şäxslärin yaşayış yerlärindäki vergi orqanlarına uyğun mälumatı täqdim etmäyän dövlät orqanlarının rähbärläri bu Qanunun 6-jı maddäsinin 2-ji bändindä göstärilän orqanların täqdimatı ilä mähkämä täräfindän inzibati qaydada otuzdan älliyä qädär aylıq haqq-hesab göstäricisi häcmindä cärimä olunmalıdırlar.

2. Bu maddänin 1-ji bändindä näzärdä tutulan qanun pozuntusunun täkrarän törädilmäsi göstärilän orqanların müqässir olan rähbärinin väzifädän çıxarılmasına, yaxud dövlät funksiyalarının vä ya onlara bärabär tutulan funksiyaların yerinä yetirilmäsindän başqa jür azad edilmäyä säbäb olur.

MADDÄ 17. Korrupsiya qanun pozuntuları faktı haqqında qäsdän yalan mälumat vermiş şäxslärin mäsuliyyäti

1. Korrupsiya ilä mübarizä aparan orqana digär dövlät qulluqçusu, hüquq-mühafizä orqanı işçisi ilä bağlı korrupsiya qanun pozuntusu faktı haqqında qäsdän yalan mälumat vermiş dövlät qulluqçusu, hüquq-mühafizä orqanı işçisi korrupsiya ilä mübarizä aparan orqanın täqdimatı ilä väzifädän çıxarılma, yaxud uyğun funksiyaların yerinä yetirilmäsindän başqa jür azad edilmäyä qädär inzibati qaydada cäzalandırılır.

2. Korrupsiya ilä mübarizä aparan orqana korrupsiya qanun pozuntusu faktı haqqında qäsdän yalan mälumat vermiş şäxs mähkämä täräfindän inzibati qaydadada otuz beş gün häbs edilir, yaxud yüzdän iki yüzä qädär aylıq haqq-hesab göstäricisi häcmindä inzibati cärimä edilir.

## III FÄSİL KORRUPSİYA QANUN POZUNTULARININ NÄTİCÄLÄRİNİN ARADAN QALDIRILMASI

MADDÄ 18. Qanunsuz alınmış ämlakın, yaxud qeyri-qanuni göstärilmiş xidmätlärin däyärinin ödätdirilmäsi

1. Korrupsiya qanun pozuntusu näticäsindä dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilmiş şäxslärin, yaxud ona bärabär tutulan şäxslärin qanunsuz varlanmasının bütün hallarında korrupsiya qanun pozuntusu nätijäsindä alınmış ämlak qaytarılmalı, qanunsuz qäbul edilmiş xidmätlärin däyäri isä dövlät näfinä ödänilmälidir.

2. Qanunsuz alınmış ämlakın könüllü tähvil verilmäsindän, yaxud onun däyärinin vä ya qanunsuz qäbul edilmiş xidmätlärin däyärinin dövlätä ödänilmäsindän  imtina edildiyi halda ödätdirilmä prokurorun, vergi xidmätinin, yaxud qanunla bu işä väkil edilmiş başqa dövlät orqanlarının vä väzifäli şäxslärin iddiası ilä mähkämänin qärarına äsasän häyata keçirilir. Göstärilmiş orqanlar mähkämänin qärar çıxarmasınadäk, qanunu pozan şäxsin ämlakının üzärinä häbs qoyurlar.

3. Dövlät funksiyalarının yerinä yetirilmäsinä väkil edilän şäxs, yaxud ona bärabär tutulan şäxs korrupsiya qanun pozuntusuna görä işdän çıxarıldıqdan, yaxud uyğun funksiyaların yerinä yetirilmäsindän başqa jür azad edildikdän sonra bu maddänin 1-ji bändindä näzärdä tutulmuş täläbläri yerinä yetirmäkdän imtina edärsä, belä azadedilmä qärarını çıxarmış väzifäli şäxs vä ya orqan alınmış qanunsuz gälirlär haqqında müqässirin yaşayış yerindäki vergi orqanına bildiriş  göndärir.

MADDÄ 19. Korrupsiya qanun pozuntusu nätijäsindä bağlanmış äqdlärin etibarsız sayılması vä aktların, görülän işlärin läğv edilmäsi

Korrupsiya qanun pozuntusunun törädilmäsi yolu  ilä bağlanmış äqdläri mähkämä qanunla müäyyänläşdirilmiş qaydada etibarsız sayır. Korrupsiya qanun pozuntusu näticäsindä görülmüş aktları vä işläri uyğun aktarın qäbuluna vä läğvinä sälahiyyäti çatan orqanın vä ya väzifäli şäxsin, yaxud marağı olan fiziki vä ya hüquqi şäxslärin vä ya prokurorun iddiası ilä mähkämä läğv edä bilär.

## IV FÄSİL.  YEKUN MÜDDÄALAR

MADDÄ 20. Qüvvädä olan qanunverijiliyin tätbiqi

Bu Qanunun qüvväyä mindiyi anda fäaliyyät göstärän  Qazaxıstan Respublikasının qanunvericiliyi ona zidd olmayan hissädä tätbiq edilir vä bu Qanunun qüvväyä mindiyi gündän sonrakı üç ayda ona uyğunlaşdırılmalıdır.

Qazaxıstan Respublikasının Prezidenti  N.Nazarbayev
Astana, 2 iyul 1998-ji il, № 267-1 ZRK